UOT 94 (479.24)

# TRABLİSQƏRB SAVAŞININ HAZIRLANMASININ GEDİŞİ AZƏRBAYCAN MƏTBUATINDA

**S.F.BAXŞƏLİYEV**
*Azərbaycan Müəllimlər İnstitutu*
*baxsaliebsamir@yahoo.com*

*Trablisqərb savaşını beynəlxalq ölçülü və ölkədaxili bir sıra səbəblər doğurmuşdu. Bir neçə yüzil parçalanmış şəkildə yaşayan İtaliya müstəmləkələr ələ keçirmək üçün fəaliyyətə başladı. İtaliya Trablisqərbə birdən-birə hücum etməyərək təcavüzə şərait yaratmaq üçün bir sıra təşəbbüslər etdi. Türkiyə hökuməti böyük dövlətlərdən Türkiyə ilə İtaliya arasındakı münaqişəyə müdaxilə etməyi xahiş etdikdə onların yeritdiyi siyasətin iç üzü daha aydın şəkildə ortaya çıxdı. 28 sentyabr 1911-ci il tarixində İstanbuldakı İtalyan səfiri De Martino Osmanlı hökumətinə müddəti 24 saat olan ultimatum verdi. Notanın cavabı hazırlanaraq sentyabrın 29-da İtaliyanın İstanbul elçisinə verildi. Cavabda italyanlara Trablisqərbdə yeni iqtisadi imtiyazların veriləcəyi, ancaq digər şərtlərin qəbul edilmədiyi bildirildi. İtaliya notaya bu cavabı qəbul etmədi və 29 sentyabr 1911-ci ildə Osmanlı dövlətinə qarşı savaşa başladı.*

**Açar sözlər:** Trablis, vəziyyət, savaş, imperiya, мятбуат

Trablisqərb savaşını beynəlxalq ölçülü və ölkədaxili bir sıra səbəblər doğurmuşdu (21, 184; 22, 145). XIX yüzilin ikinci yarısında Avropada yeni bir yırtıcı kapitalist rejimi – İtaliya tarix səhnəsinə çıxdı. Bir neçə yüzil parçalanmış şəkildə yaşayan İtaliya 1870-ci ildə milli birliyini təmin edə bildi. Bundan sonra o, müstəmləkələr ələ keçirmək üçün fəaliyyətə başladı. Bu sahədə o, İngiltərə və Fransadan çox geridə qalmışdı. Qərbin bu iki dövləti bir çox ölkələri müstəmləkəyə çevirmişdi. İtaliya yalnız ələ keçirilməmiş torpaqları arzu edə bilərdi.

İtaliyanın müstəmləkəçilik fəaliyyətinin ilk hədəfi Trablisqərb bölgəsi (Benqazi də daxil olmaqla) idi. Osmanlı dövlətinin Şimali Afrikadakı torpaqları olan bu bölgələri İtaliya öz istilaçılıq məqsədinə çox uyğun hesab edirdi. Belə ki, 1881-ci ildə Fransa Tunisi, 1882-ci ildə isə İngiltərə Misiri ələ keçirdikdən sonra Şimali Afrikada işğal edilməmiş son Osmanlı torpağı Trablisqərb vilayəti idi. Tunis və Misiri ələ keçirdiklərinə görə Fransa və İngiltərəyə etiraz edən İtaliya bundan sonra Almaniya və Avstriya-Macarıstana yaxınlaşaraq bu dövlətlər ilə 1882-ci ildə müqavilə imzaladı (5, 87). 1898-ci ildə Şimali

Afrikadakı müstəmləkələrin bölüşdürülməsi ilə bağlı İngiltərə və Fransa arasında yaranan böhranın sonunda Şimali Afrikanın bölüşdürülməsi həyata keçirildi və beləliklə də Trablisqərb vilayəti İtaliyanın öhdəsinə buraxıldı (23).

İtaliya Trablisqərbi ələ əkeçirmək uğrunda mübarizəni üç mərhələdə apardı. Birinci mərhələdə İtaliya «sülhsevər işğal» siyasətini yeritdi. İkinci isə diplomatik mübarizə mərhələsi idi. Üçüncü mərhələni də hərbi savaş yolu ilə Trablisqərbdə yerləşmək təşkil edirdi.

İtaliya 1902-ci ildən Trablisqərbə qarşı «Sülhsevər işğal» siyasətinin tətbiqinə başladı (6, 82). Bu siyasətə əsasən Roma Bankının maddi yardımı ilə iqtisadiyyat və ticarət sahələrində bir sıra təşəbbüslər edildi, bəzi müəssisələr (fabrik-zavod və b. iş yerləri) quruldu. Bütün bunlar isə lazım gəldiyi halda silahlı hücum üçün əlverişli şərait, zəmin hazırlamaq məqsədini güdürdü. İtaliyanın bu təşəbbüsləri qarşısında Trablisqərb qubernatoru (vali) marşal İbrahim Paşa gizli məqsəd güdən bu iqtisadi fəaliyyətlərə mane olmaq üçün qızğın fəaliyyətə başladı və İtaliyanın bütün iqtisadi imtiyazlarının qarşısını aldı (23). İbrahim Paşanın bacarıqlı, ağıllı tədbirləri nəticəsini tezliklə verdi. Ortaya çıxan maliyyə tənəzzülü nəticəsində Roma Bankı borcları qaytarmaq üçün ingilis və fransız maliyyəçiləri ilə müzakirələrə başladı (23).

Osmanlı hökuməti İtaliyanın Şimali Afrika bölgəsindəki əməllərini diqqətlə izləyirdi (22, 145). Doğrudur, Trablisqərb vilayəti mərkəzdən çox uzaq idi və buraya hərtərəfli yardım göstərmək xeyli çətin idi. Eyni zamanda, bölgənin strateji baxımdan da Osmanlı dövləti üçün əhəmiyyəti yox dərəcəsində idi. Ancaq ortada bir «nüfuz məsələsi» vardı. Osmanlı hökuməti bütün çətinliklərə baxmayaraq İtaliyanın gizli məqsəd güdən əməllərini təsirsiz qoymaq üçün təşəbbüslərə, daha doğrusu, İtaliyanın gözlənilən təcavüzünə qarşı Trablisqərbdə lazım olan tədbirləri görməyə başladı. Sultan II Əbdülhəmid bu bölgədə uğurlu siyasi tədbirləri həyata keçirdi. Belə ki, qabiliyyətli komandirlər təyin etdiyi Trablisqərbdəki Osmanlı diviziyasını (42-ci diviziya – **müəllif**) silah və digər hərbi sursat baxımından möhkəmləndirdi, bölgənin güclü, nüfuzlu sülalələrindən olan Benqazidəki Sənusiləri də silahlandırdı(24). İtaliya təcavüzünün duyulduğu ilk mərhələdə Sultan II Əbdülhəmid yazırdı: «Benqaziyə sahib olmaq bizə çox baha başa gəlir. Hər il buraya sərf olunan pul saysız-hesabsızdır və İtaliyanların oyunlarının da hüdudu yoxdur… İtaliyanlar buradakı iqtisadi imkanları və buranın himayəsini onlara verməyimiz şərtiylə bizə 54 milyon lirə ödəməyi təklif edirlər. Bu təklifi araşdırmaq faydalıdır. Çünki buradan əl çəkməklə başımız dinc olacaq. Əlimizə digər məsələlərimizi həll etməyə yardım edəcək xeyli pul keçəcək, üstəlik də Benqazinin sonralar əlimizdən məcburi şəkildə çıxmasından bu daha yaxşıdır… Benqazidə bizim haqqımızı qoruya biləcək bir şəxs varsa, o da Mehdi-Şeyx Sənusidir. Lazım gəldikdə otuz minlik ordu toplaya biləcək vəziyyətdədir və mücadiləsiz olaraq Benqazini İtalyanlara vermək niyyətində deyildir. Üstəlik Sunusi, üzvlərinin sayı yüzminlərlə olan dünyadakı bütün dərviş təşkilatları ilə münasibətdədir. Əgər Sunusilər ayağa qalxarlarsa, İtaliyanları qanlı bir savaşa sürükləyəcəklər

və bu isə Sudandakı Mehdi ilə aparılan savaşdan daha betər olacaq. Sunusilər lazım gələn qədər silah, top təmin etmişlər...» (10, 141-142). Beləliklə, mərkəzdə və yerlərdə görülən tədbirlər nəticəsində İtaliya Trablisqərbə təcavüz etməkdən çəkindi.

«Kaspi» qəzeti 22 sentyabr 1911-ci il tarixli sayında xarici qaynağa əsaslanaraq Trablisin müdafiə qabiliyyəti ilə bağlı maraqlı məlumatlar verirdi. Qəzet bildirirdi ki, Trablisdəki türk silahlı qüvvələrinin vəziyyəti Avropada düşünüldüyündən çox yaxşıdır. Sultan II Əbdülhəmidin dövründə buraya sürgün edilmiş Gənctürklər təhsilli və qabiliyyətli şəxslər olub Trablisqərbdə maarifçilik fəaliyyəti göstərmişdilər. On il Trablisqərb valisi olan marşal Rəcəb Paşa bu vilayətdə mühüm hərbi islahatlar keçirərək ordunun canlı qüvvəsini 20 min nəfərə çatdırmışdı (18-№212). İtaliya təcavüzü ərəfəsində Trablisqərbin müdafiəsi başlıca olaraq milis qüvvələrinin öhdəsinə düşürdü. Onların da bir hissəsi yeniçərilərin varislərindən, digər bir hissəsi isə yerli ərəblərdən ibarət idi. Burada uzun illərin ənənəsi olaraq yaxşı keyfiyyəti olan süvari ordusu yaradılmışdı. Sultan II Əbdülhəmid bu nizamı olmayan süvari ordunu yeni hərbi üsullar ilə yetişdirmək üçün alman polkovniki Ryüdqişi buraya göndərmişdi. Ryüdqiş 2 il müddətində əla nəticələr əldə etdi (18-№212). İtaliya təcavüzü ərəfəsində bu ordunun canlı qüvvəsi 30-40 min nəfərdən ibarət idi, ancaq lazım gələrsə, ərəblərin hesabına bu qüvvə sayca xeyli artırıla bilərdi. «Fransanın «La Françe Militaire» qəzetinə istinad edərək «Kaspi» yazırdı ki, müstəqil Trablisqərb diviziyası 2 piyada briqadasından ibarət olub sayca 12 mindən 15 minə qədər döyüşçünü əhatə edirdi (18-№212). Bütün yay fəsli ərzində Trablisqərbdə hərbi nazirlik tərəfindən xeyli miqdarda silah və hərbi sursat ehtiyatı yaradıldı. İtaliya ilə hərbi münaqişədən bir az əvvəl hərbi nazir Mahmud Şövkət Paşa tərəfindən burada üç pulemyot bölüyü təşkil edildi. Qəzetin məlumatına görə Trablisqərbdə Türkiyənin yerli ərəblərdən ibarət qüvvəni də daxil etməklə 60 min nəfərdən ibarət ordusu vardı( 18-№212). Xarici qaynaqlara əsasən «Kaspi»nin göstərdiyi rəqəmlər Türkiyənin bu ucqar vilayətdəki hərbi qüvvəsini bir qədər artıq göstərirdi. Belə ki, «Kaspi»nin 17 sentyabr 1911-ci il tarixli sayında Paris qəzetlərinə əsasən Türkiyənin Trablsqərbdə 30 minə qədər qüvvəsi olduğu bildirilir və bundan başqa Türkiyə hökuməti yerli ərəb əhalisindən təqribən 40 min döyüşçü səfərbərliyə ala biləcəyi göstərilirdi(16-№208).

İtaliya hökuməti Trablisqərb və Benqazi bölgələrini Qərbi Avropa böyük dövlətlərinin və Rusiyanın razılığı olmadan istila etməkdən də çəkinirdi. Buna görə də qarşıdakı istila üçün əlverişli diplomatik şəraiti hazırlamaq üçün geniş fəaliyyətə başladı. Bu diplomatik mübarizə istiqamətində o, 1887-ci illdə İngiltərə, Avstriya-Macarıstan və Almaniya, 1891-ci ildə yenə Almaniya və Avstriya-Macarıstan, 1902-ci ildə təkrar Avstriya-Macarıstan və Fransa, 1904-cü ildə ikinci dəfə İngiltərə və nəhayət, 1909-cu ildə isə Rusiya ilə müqavilələr imzaladı (11, 361; 24). Bu dövlətlər Trablisqərb və Benqazinin İtaliya tərəfindən işğalına etiraz etməyəcəklərinə dair İtaliyaya söz verdilər. Böyük dövlətlə-

rin bu hərəkətləri qarşılığında İtaliya da böyük dövlətlərin Türk-Osmanlı torpaqlarını işğal fəaliyyətlərinə etiraz etməyəcəyini bildirdi(15-s.64-65). Beləliklə, İtaliya Trablisqərb və Benqazinin işğalı üçün əlverişli diplomatik şəraitin yaradılmasını 1909-cu ildə başa çatdırmış oldu. Bu İtaliya diplomatiyasının uğuru idi. İtaliya iki hərbi-siyasi blokun – Antanta və Üçlər İttifaqı arasındakı ziddiyyətlərdən məharətlə istifadə edərək özü üçün əlverişli şərait yarada bilmişdi (21, 185).

Bütün bunlar az imiş kimi İtaliyanın təşəbbüsləriylə Trablisqərb valisi və komandanı marşal İbrahim Paşa da vəzifəsindən götürüldü. İtaliyanın Trablisqərbə hücuma hazırlaşdığı bir zamanda İbrahim Paşa kimi qabiliyyətli və fəal yüksək rütbəli bir hərbiçi və idarəçinin vəzifədən götürülməsi bağışlanmaz bir yanlışlıq idi. Ümumiyyətlə, bir-birinin ardınca səhvlər buraxan Haqqı Paşanın yanlış davranışları İtaliyanın təcavüzlərinə əslində əlverişli şərait yaradırdı. O, bu yanlış hərəkətlərə hələ Roma səfiri olarkən başlamışdı. O zaman səfir Haqqı bəy Osmanlı xarici işlər nazirinin sorğusuna cavab olaraq İtaliyanın Trablisqərbə qarşı təcavüz niyyəti olmadığını bildirirdi (9, 138). İndi isə İtaliya mətbuatı İtaliyanın Trablisqərblə bağlı məqsədini açıq-aydın yazır, şərh edirdi (84, 50). Osmanlı dövlətinin Romadakı səfiri isə Trablisqərbin İtaliya tərəfindən işğal ediləcəyini qəti şəkildə İstanbula bildirirdi. Ancaq bütün bunlara baş nazir – sədrəzəm Haqqı Paşa əhəmiyyət vermirdi (3, 81).

İtaliyanın bütün hərəkətlərindən Şimali Afrikadakı son Osmanlı əyaləti olan Trablisqərbi işğal etmək istədiyi aydın idi. İtaliya, yuxarıda deyildiyi kimi, açıq təcavüzdən xeyli əvvəl bu bölgədə kapital qoyuluşuna başlamışdı. 1883-cü ildən başlayaraq burada Roma Bankının şöbələrini açdı və ticarəti ələ keçirdi, İtalyanların burada torpaq və digər əmlak almaları üçün əlverişli şərait yaratdı. Bunlardan başqa İtaliya hökuməti yerli sakinləri öz tərəfinə çəkmək üçün burada məktəblər və xəstəxanalar da açdı (7, 543-544).

İtaliya Trablisqərbə birdən-birə hücum etməyərək təcavüzə şərait yaratmaq üçün bir sıra təşəbbüslər etdi. Trablisqərb valisi marşal İbrahim Paşa da İtaliyanın bu bölgədəki əməllərinin hansı məqsəd daşıdığını bildiyinə görə ona qarşı təsirli tədbirlər görmüşdü. Yuxarıda da göstərildiyi kimi, İbrahim Paşa İtaliyanın iqtisadi imtiyazlarını da bu səbəbdən ləğv etmişdi (23). İbrahim Paşanın bu tədbirlərindən sonra İtaliya hökumətinin İtaliyanın Trablisqərbdəki iqtisadi fəaliyyətinə, təşəbbüslərinə mane olduğunu bildirdi (5, .89). Bütün bunlar haqqında İstanbula məlumat verildikdə xarici işlər naziri Rifət Paşa bildirdi ki, Osmanlı hökuməti İtaliyanın iqtisadi fəaliyyətinə qarşı deyil, ancaq İtaliya dövlətinə başqa dövlətlərdən fərqli imtiyazlar verilməyəcəkdir (5-90; 231).

Bütün bunlarla bərabər, Osmanlı hökuməti məsələni gərginləşdirməyə çalışmır, mümkün qədər İtaliya ilə savaşa yol verməməyə çalışırdı. Trablisqərb valisi İbrahim Paşa da məhz bu məqsədlə vəzifəsindən götürülmüşdü.

«Kaspi» qəzeti 16 sentyabr 1911-ci il tarixli sayında Peterburq teleqraf agentliyi vasitəsilə İstanbuldan alınan mətumatı dərc edərək bildirirdi ki,

İtaliya hərbi əməliyyatlara başlayarsa, Türkiyə Trablisqərbi son ana qədər müdafiə etməyi, bütün İtaliya təbəələrini ölkədən çıxarmağı və İtaliyanın kapitulyasiya hüququnu ləğv etməyi qərara alıb. Ancaq baş nazir (sədrəzəm – S.B.) axşamdan xeyli keçmiş Avstriya səfirliyinin tərcüməçisiylə görüşdən sonra son günlərlə müqayisədə vəziyyətin yaxşılaşdığını bildirir (20-№227). Qəzet yenə adı çəkilən sayında yazır ki, sentyabrın 13-də Romada İtaliyanın xarici işlər naziri ilə Türkiyənin səfiri görüşərkən səfir mübahisəli məsələləri Türkiyə ilə ənənəvi dostluq vasitələriylə həll etmək istədiyini bildirdikdə, nazir İtaliyanın yaxşıca əsaslandırılmış iddialardan imtina edə bilməyəcəyini, bununla belə Türkiyə ilə dostluq münasibətlərini saxlamaq istədiklərini bildirdi (20-№227).

Nazir bu qərarı İtaliyanın Balkanlardakı səfirlik və konsulluqlarına bildirərkən qeyd edirdi ki, bu halda İtaliya hansı bir vasitəyə əl atmaq məcburiyyətində olacaqsa olsun, yenə də onun siyasətinin əsasını Balkanlarda «status kvo»nun saxlanılması və Avropa Türkiyəsinin möhkəmləndirilməsi təşkil edəcək. İtaliya hökuməti Balkan yarımadasında Türkiyəyə qarşı hər hansı bir hərəkəti nəinki şirnikləndirmək istəyir, hətta indiki anda bu cür çıxışların imkanını aradan qaldırmaq üçün səyləri ikiqat artırmağı möhkəm qərara alıb. Nazir davam edərək bildirirdi: Buna görə də bütün hallarda İtaliyanın təmsilçiləri İtaliya hökumətinin yeritdiyi siyasətin bu son məqsədini dərk etməlidirlər (16-№208). «Kaspi» qəzeti 24 sentyabr 1911-ci il tarixli sayında İtaliya siyasətinin bu «son məqsədi»ni çox dəqiq şərh edən Ənvər bəyin fikrini dərc edib (19-№214). «Ənvər bəy işlərin durumu haqqında» başlığı ilə verilmiş bu yazıda deyilir: «Türkiyə inqilabının görkəmli xadimi, hazırda Berlində hərbi attaşe olan Ənvər Bəy işlərin durumu haqqında fikrini «Vossische Zeitung» qəzetinin əməkdaşına şərh etmişdir» Ənvər Bəy ilk öncə Krit məsələsinə toxunduqdan sonra bildirmişdi ki, Trablisqərb məsələsiylə bağlı İtaliyanın Balkanlardakı qüvvəsi haqqında söhbətlər yalnız gülüş doğura bilər. Roma Balkan dövlətlərinə xəbərdarlıq edir ki, onlar Türkiyənin çətinliklərindən istifadə etmək haqqında düşünməsinlər.

Təcavüzdən öncə İtaliya Osmanlı hökumətində Trablisqərbə hücum edilməyəcəyinə dair yanlış fikir yaratmaq üçün aldadıcı xarakterli rəsmi bəyanatlar verir (15, 52) və digər tədbirlərə əl atırdı. İtalyanların dəvətiylə 1910-cu ilin yazında Türkiyədən 100 nəfərlik bir qrupun İtaliyada səyahətdə olması və qrupa yalançı dostluq münasibətlərinin göstərilməsi buna misal ola bilər. Bu səyahətin iştirakçısı olmuş jurnalist Əhməd Əmin Yalman yazır: “1910-cu il yazda italyanlar yüz nəfərlik Türk qrupunu İtaliyaya çağırdılar... Çağrılanların arasında hər peşənin, mühitin mənsubları vardı. Mən də “Yeni Qəzetə” adından səyahətə qatıldım... İtaliyanın hər bucağını qismən buxarlı gəmi ilə, qismən də xüsusi qatarlarda dolaşdıq, çox hörmət gördük. Sonradan məlum oldu ki, İtalyanlar böyük xərclər tələb edən səyahəti bizim gözlərimizi bağlamaq, Trablisqərbə planlaşdırdıqları hücumu rahatca həyata keçirmək məqsədiylə təşkil etmişlər. O qədər ustalıqla hərəkət etmişdilər ki, o zaman

Romada səfir olan Osmanlı hökümətinin əski müşaviri İbrahim Haqqı Paşa adıyla Sədrəzəm olması İtaliyanın sakitləşdirici, keyləşdirici siyasətinin işinə yaramışdı" (12, 109).

İtaliya Trablisqərblə bağlı məqsədyönlü şəkildə hərəkət edirdi. Artıq 1909-1910-cu illərdə Avropadakı siyasi vəziyyət də İtaliyanın məqsədi üçün əlverişli olmuşdu. Qarşı-qarşıya duran iki hərbi-siyasi blokun – Antanta və Üçlər İttifaqının (İtaliya bura daxil idi) bu məsələdə öz hesabatları vardı. Belə ki, Antanta dövlətləri İtaliyanı öz tərəflərinə çəkmək, yaxud onun tərəfsiz qalmasını təmin etmək, Üçlər İttifaqı isə İtaliyanı tamamilə özünə bağlamaq üçün onu dəstəkləyirdilər (15, 58, 65).

İtaliya qarşıdakı savaşın çox az davam edəcəyinə dair Antanta və Üçlər İttifaqı dövlətlərinə təminat da verdi (14, 65). İtaliya qoşunları Baş qərargahı az bir qüvvə (25-30 minlik) ilə qısa müddətdə Şimali Afrika vilayətlərinin ələ keçirilməsinin mümkün olacağını düşünürdü (15, 65). Son nəticədə Almaniyanın da maneçilik törətməyəcəyinə əmin olduqdan sonra İtaliyanın əl-qolu açıldı.

Almaniyanın qarşıdakı savaş ilə bağlı mövqeyi maraqlı idi. Belə ki, bu məsələdə Almaniya diplomatik dairələrində iki fikir vardı. Birinciyə görə, Almaniya İtaliya ilə deyil, Türkiyə ilə müttəfiq olmalı idi. İkinci fikir isə belə idi ki, bu addım Üçlər İttifaqı sistemini təhlükə qarşısında qoya bilərdi. Nəhayət, üçüncü – orta bir yol: həm İtaliya, həm də Türkiyə ilə yaxın münasibətləri saxlamaq yolu qəbul edildi (15, 59-60). Əslində Almaniyanın mövqeyi də İtaliyanı himayə edən Antanta dövlətlərinin mövqeyindən fərqlənmirdi (15, 61). Almaniya Avropada qüvvətlənmək üçün qarşısında rəqib görmək istəmir və buna görə də İtaliyanı Avropadan kənarda genişlənməyə təhrik edirdi (1, 184).

Türkiyə hökuməti böyük dövlətlərdən Türkiyə ilə İtaliya arasındakı münaqişəyə müdaxilə etməyi xahiş etdikdə onların yeritdiyi siyasətin iç üzü daha aydın şəkildə ortaya çıxdı. Məsələn, "Kaspi" qəzeti özünün 17 sentyabr 1911-ci il tarixli sayında belə bir məlumatı dərc edirdi ki, Osmanlı hökuməti İtaliya ilə münaqişəyə müdaxilə etmək barədə Rusiyaya müraciət etmiş, ancaq Rusiya hökuməti müraciətə rədd cavabı vermişdir. Rusiya rədd cavabını belə əsaslandırmışdı ki, Trablis mübahisəsi xüsusi məsələdir və beynəlxalq əhəmiyyət daşımır (16-№208). Röyter agentliyi isə bildirirdi ki, silahlı toqquşma baş verərsə, bitərəf qalacaqları haqqında İtaliya və Türkiyəyə xəbədarlıq edilmişdir (16-№208).

Nəhayət, İtaliyanın adından 28 sentyabr 1911-ci il tarixində İstanbuldakı İtalyan səfiri De Martino Osmanlı hökumətinə müddəti 24 saat olan ultimatum verdi(24; 16-№208). Ultimatumun ən mühüm şərtləri bunlardan ibarət idi (8, 436). Trablisqərb və Benqazi mədəniyyət nemətlərindən məhrum edilmişdir və İtaliya artıq buna dözməyəcəkdir, İtaliyanın mənafeinin genişlənməsinə Osmanlı dövləti tərəfindən çətinliklər törədilmiş, xalq İtaliyaya qarşı təhrik edilmişdir; Trablisqərb və Benqazidən hərbi dəstələr dərhal çıxarılmalıdır; İtalyan zabitlərinə tabe olan bir jandarma dəstəsinin yaradılmasına izin veril-

məlidir; Trablisqərbə vali təyin edilərkən İtaliyanın da rəyi öyrənilməlidir; İtaliyaya yeni iqtisadi imtiyazlar verilməlidir; gömrük rüsumları İtaliya məmurlarının ixtiyarına verilməlidir.

Göründüyü kimi, ultimatumun şərtləri çox ağır idi və bu ultimatum Türkiyədə böyük çaşqınlığa səbəb oldu (16, №208). Ölkəni idarə edənlər ilk öncə nə edəcəklərini qəti şəkildə müəyyənləşdirə bilmədilər. Eyni zamanda onlar qəflətdən ayrılmış oldular. Ultimatum verilən gün dərhal hökumət üzvləri toplandı və Sədrəzəm – Baş nazir Haqqı Paşa böyük uğursuzluğa uğradığına görə istefa verdi, onun yerinə Said Paşa gətirildi (4, 176). Bundan sonra notanın cavabı hazırlanaraq sentyabrın 29-da İtaliyanın İstanbul elçisinə verildi. Cavabda İtalyanlara Trablisqərbdə yeni iqtisadi imtiyazların veriləcəyini, ancaq digər şərtlərin qəbul edilmədiyi bildirildi. İtaliya bu nota cavabını qəbul etmədi və 29 sentyabr 1911-ci il tarixində Osmanlı dövlətinə qarşı savaşa başladı (17-№209; 2, 24; 24; 13, 391).

**ƏDƏBİYYAT**


1. Bayar,Celal. Ben de Yazdım, c.2 Baha Matbaası, İstanbul, 1966.
2. Байур, Йусуф Щикмет. Тцрк Инкилабы Тарищи, с. 2, Кысым Ы, Кысым ЫВ., Тцрк Тарищ Куруму Йайынлары. Анкара, 1953.
3. Байур, Йусуф Щикмет. Тцрк Инкилабы Тарищи, с. 3, Кысым 1, Тцрк Тарищ Куруму Йайынлары. Анкара.
4. İbnülemin M.Kemal İnal Son Sadr-azamlar, c.1, Derqah Yayınları, İstanbul, 1982.
5. Карал, Енвер Зийа. Османлы Тарищи, Ъ. 8, Тцрк Тарищ Куруму Йайынлары, Анкара, 1983.
6. Колоьлу, Орщан. Траблусгарп Савашы ве Тцрк Субайлары. Басын Йайын Эенел Мцдцрлцьц. Анкара, 1979.
7. Куран, Ащмеd Бедеви. Османлы Императорлуьунда Інкılап Щарекетлери ве Милли Мцъаделе. Истанбул Челтцт Матбаасы, 1959, 910 s.
8. Nihat Erim. Osmanlı İmratorluğu Andlaşmları, c. 1, Ankara Universitesi Hukuk Fakultesi Yayınları, Ankara, 1953.
9. Окйар, Фетщи. Цч Девирде Бир Адам. Теръцман Йайынлары. Истанбул, 1983.
10. Султан ЫЫ Абдулщамид. Сийаси Щатыратым. Щарекет Йайынлары. Истанбул, 1974.
11. Тцрк Ансиклопедиси, ъ. 31, МЕБ, Анкара, 1982.
12. Йалман, Ащмет Емин. Йакын Тарищте Эюрдцклерим ве Эечирдиклерим. ъ. 1, Рей Йайынлары, Истанбул, 1970.
13. История Италии в трех томах, т. 2, М.: Наука, 1970, 607 с.
14. Трофимов В.А. Итальянский колониализм и неоколониализм (История и современность). М.: Наука, 1979, 287 с.
15. Яхимович, З.П. Итало-турецкая Наука 1911-1912 гг. М.: Наука, 1967, 204 с.
16. Газ. «Каспий»., 17 сентября 1911 г., №208
17. Газ. «Каспий»., 20 сентября 1911 г., №210
18. Газ. «Каспий»., 22 сентября 1911 г., №212
19. Газ. «Каспий»., 24 сентября 1911 г., №214
20. Газ. «Каспий»., 11 октября 1911 г., №227
21. Газ. «Кавказ и мир. Международный научный журнал». 2011. №11
22. Bilimsel Eksen Uluslararası Hakemli Sosial Bilimlep dergisi. 4 sayı. Анкара. 2011.
23. http: // tr. wikipedia.org/wiki/ Trablusgarp sava% c 5% 9 F% c 4% B1

24. http://www.bilgipasaji.com/forum/tarih-cografiya-418/62146-trablusgarp-savas.

## ОТРАЖЕНИЕ НА АЗЕРБАЙДЖАНСКОЙ ПЕЧАТИ ХОДА ПОДГОТОВКИ ТРАБЛИССКОЙ ВОЙНЫ

**С.Э.БАХШАЛИЕВ**

### РЕЗЮМЕ

Материалы и статьи азербайджанской периодической печати показывают, что Траблисскую войну порождали некоторые, довольно серьезные, причины. Италия, как восстановила свою целостность, устранив многовековую раздробленность страны, начала борьбу за овладением колониальных территорий. Италия войну начала не сразу и делала кое-какие попытки. Османская империя, когда попросила вмешательство великих держав в конфликт, их истинное лицо в отношении Османской империи открылось полностью. 28 сентября 1911 года Италия предъявила ультиматум к Османскому Правительству сроком на 24 часа. Османское Правительство подготовил ответ на ноту и через день вручило итальянскому послу. В нем говорилось, что итальянцам в Траблисе будут отдаваться новые привилегии, но остальные пункты ультиматума не принимаются. Но этот ответ не устраивал Италию и она 29 сентября 1911 года объявила войну Османской империи.

**Ключевые слова:** Траблисская, положение, война, империя, печать

## REFLECTION OF PREPARATIONS FOR TRABLISS WAR IN AZERBAIJAN PRESS

**S.E.BAKHSHALIYEV**

### SUMMARY

Materials and articles of the Azerbaijan periodical print show that Trabliss war was caused by some rather serious reasons. As soon as Italy regained its integrity by eliminating the age-old separation of the country, the struggle for mastery of the colonial territories commenced. Italy did not start the war and did not make any immediate or primary attempts. When the Ottoman Empire asked for the interference of the great powers in the Ottoman-Italian conflict, their true colors against the Ottoman Empire opened fully. On September 28, 1911 the Italian ambassador to Istanbul issued an ultimatum to the Ottoman government on behalf of his government for a period of 24 hours. The Ottoman Government prepared a response to the note and the next day handed it to the Italian Ambassador. It said that the Italians in Trablisse would be given new privileges, but the reply did not prevent Italy from declaring war to the Ottoman Empire on September 29, 1911.

**Key words:** Trabliss, situation, war, empire, пресс